# Şuşaya qayıdanların sayı 400 nəfəri ötdü









**Böyük qayıdışın Şuşa salnaməsi davam edir. Dünən daha bir köç karvanı yurduna qovuşdu. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Şuşa şəhərinə 15 ailə - 57 nəfər daimi yaşamaq üçün qayıtdı. Bununla Şuşada 105 ailənin, yəni 406 nəfərin daimi məskunlaşması təmin edildi.**

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr şəhər və kəndlərimizin sürətlə dirçəldilməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyin təmin olunmasına xidmət edir. Bunun nəticəsidir ki, artıq 1935 ailə - 7544 nəfər əzəli məskənlərinə qayıdıblar. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 493 ailə (1838 nəfər) Laçın şəhərinə, 822 ailə (3132 nəfər) Füzuli şəhərinə, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndinə, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndinə, 105 ailə (406 nəfər) Şuşa şəhərinə, 44 ailə (169 nəfər) Xocalı şəhərinə yaşamaq üçün dönüb.

### "Bu günlərin şahidi olmaqla yanaşı, iştirakçısı olmaq da bir başqa xoşbəxtlikdir"

Böyük qayıdış sürətlə davam edir, keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına köçür, bu yerlərdə həyat yenidən axarına qayıdır. Şuşalılar uzun illərdir həsrətini çəkdikləri torpaqlarına sevinc və qürur hissi ilə qayıdırlar. Doğma yurda qayıdan Şuşa sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Uzun illərdir yurda dönüşünü səbirsizliklə gözləyən Şuşa sakini Yeganə Nəsibova deyib ki, bu günün gəlib çatdığına hələ də inana bilmir: "Doğma torpaqlarımıza qayıtdığım üçün çox sevincliyəm. Bu hissləri təsvir etmək qeyri-mümkündür. Xoşbəxt xalqıq ki, torpaqlarımızı azad etdik. Var olsun bu günləri bizə yaşadan milli ordumuz, igidlərimiz, Ali Baş Komandanımız. Hər biri ilə fəxr edirik. İndi bu torpaqları daha da inkişaf etdirmək, dirçəltmək üçün hər bir vətəndaş çalışmalıdır".

Yurduna qovuşan keçmiş məcburi köçkün İlhami Cəfərsoy söyləyib ki, artıq Şuşada yeni bir həyat başlayır: "Bu günlərin şahidi olmaqla yanaşı, iştirakçısı olmaq da bir başqa xoşbəxtlikdir. Ən böyük arzum isə Qarabağ Universitetində işləməkdir. İnşallah, yaxın günlərdə pedaqoji fəaliyyətimi orada davam etdirərəm".

### Vətən nisgili çəkən olmayacaq

Böyük Zəfərdən qısa müddət keçməsinə baxmayaraq, azad edilmiş ərazilərimizdə həyat canlanır, bərpa-quruculuq işləri davam etdirilir, keçmiş məcburi köçkünlər yurdlarına qovuşurlar. 2026-cı ilədək Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin məskunlaşması nəzərdə tutulur.

Otuz il öncə torpaqlarından zorla didərgin salınan vətəndaşlarımız fərəh və qürurla ömürlərinin yeni səhifəsinə başlayırlar. Xalqımızın bu sevincinin, qürurunun və güvəninin səbəbkarı isə Müzəffər Ali Baş Komandanın iradəsi və rəşadətli Azərbaycan Ordusunun şücaətidir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 31 may, № 113.- S.15.